# M Ü N D Ə R İ C A T

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti.......... 3
Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı.......... 6
Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmə kollegiyaları sədrlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı.......... 7
Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı.......... 8
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu.......... 11
Ali Məhkəmədə 2010-cu ildə baxılan işlər haqqında ümumi məlumat.......... 14
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat.......... 16
Ali Məhkəmənin məhkəmə kollegiyalarında 2010-cu ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: .......... 17
Cinayət kollegiyası.......... 17
Hərbi kollegiya.......... 20
Mülki kollegiya.......... 22
İnzibati - İqtisadi kollegiya.......... 26
Ali Məhkəmənin Plenumu.......... 30
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi.......... 34
Ali Məhkəmənin 2010-cu ildə beynəlxalq əlaqələri.......... 38
Azərbaycan Respublikası Milli Məclisinə Seçkilərlə əlaqədar Ali Məhkəmədə Venesiya Komissiyası ilə birlikdə Beynəlxalq Konfrans.......... 44
Konfransda Ali Məhkəmənin sədri Ramiz Rzayevin giriş sözü.......... 46
Ali Məhkəmənin bir qrup hakimlərin təntənəli surətdə təqaüdə yola salınması mərasimi.......... 49
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi.......... 51
Ali Məhkəmənin İnternet səhifəsi.......... 52
Ali Məhkəmənin bülleteni.......... 53
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası.......... 54

**Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə**

# M Ü R A C İ Ə T İ

***Hörmətli xanımlar və cənablar!***



Bu gün Sizinlə hər il keçirilən ənənəvi görüşə toplaşmışıq. Biz artıq altıncı dəfədir ki, görüşür, fikirlərimizi bölüşürük.

Öncə nəzərinizə çatdırım ki, 2010-cu ildə Ali Məhkəmənin daha da müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmişdir. Hər həftə Ali Məhkəmədə keçirilən seminarda beynəlxalq hüquqi aktlar, xüsusən də "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının presedent hüququ öyrənilir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar keçirilir, Avropa dövlətlərinin məhkəmələrinin təcrübəsinin öyrənilməsinə kömək edən xarici dövlətlərə tanışlıq səfərləri təşkil edilir. Məhkəmə prosesində ən yeni informasiya texnologiyalarından istifadə olunur. Hakim vəzifəsinə seçim prosedurları Avropa standartlarına uyğunlaşdırılmışdır.

Ali Məhkəmənin funksiyası və fəaliyyət dairəsi barədə yəqin ki, bilirsiniz. Xatırladıram ki, Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən işlər üzrə Ali Məhkəmə orqanı olmaqla kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir, məhkəmə təcrübəsini

ümumiləşdirərək, məhkəmə təcrübəsinə aid məsələlər üzrə tövsiyyələr verməklə ölkədə sosial ədalətin bərqərar olmasını təmin edir.

2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Ali Məhkəmənin kollegiya sədrləri və Milli Məclisin qərarı ilə Ali Məhkəməyə yeni hakimlər təyin olunmuşdur. Mən dövlətimizin başçısı möhtərəm cənab İlham Əliyevin 2010-cu il 22 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Qanununu xüsusi qeyd etmək istəyirəm. Həmin Qanunla Ali Məhkəmədə iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyasının bazasında inzibati-iqtisadi kollegiya yaradılmışdır.

Ali Məhkəmə ölkəmizdə sabitliyin, demokratiyanın hüquqi dövlətdə davamlı təmin edilməsinə nail olmaq üçün hakimlərin müstəqil olmasına önəm verir. Yəqin ki, hakimlərin müstəqilliyi olmadan hüquqi dövlətin mümkünsüzlüyü və əksinə, hüquqi dövlətsiz hakim müstəqilliyinin də real olmaması prinsipinə Sizi inandırmağa ehtiyac yoxdur.

2010-cu ildə Ali Məhkəmənin kollegiyalarının fəaliyyətində nəzərə çarpacaq irəliləyiş olmuşdur.

2010-cu ildə baxılmış işlərin sayı ötən ilə nisbətən 10,1 faiz artmışdır.

Ali Məhkəmənin Plenumunun 2010-cu ildə 7 iclası keçirilmiş, 48 qərar çıxarılmışdır.

2010-cu ildə Ali Məhkəmədə vətəndaşların ərizə və şikayətlərinə, digər müraciətlərinə baxılmasına, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsinə diqqət artırılmışdır.

Ali Məhkəməyə edilən müraciətlərdə azalma müşayidə olunmuşdur. Əlavə kassasiya şikayəti ilə bağlı müraciətlər də azalmışdır.

Bunlar onu göstərir ki, aşağı instansiya məhkəmələrində çıxarılan qərarlarda qanunvericiliyin daha düzgün tətbiq edilməsi təmin edilir.

Sizlərə Ali Məhkəmənin 2010-cu il fəaliyyətinə dair məlumat kitabçası təqdim olunub. Fikrimizcə, həmin məlumat kitabçası ilə görülən işlər və ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti barədə Sizlərdə dolğun təsəvvür yaranmasına nail ola biləcəyik.

Siz müəyyən məsləhətləşmələr və məlumat üçün Ali Məhkəmənin mətbuat katibinə və ictimai əsaslarla fəaliyyət göstərən "spiker-hakim"lərə, yəni "danışan hakim"lərə müraciət edə bilərsiniz.

***Hörmətli jurnalistlər!***

Sizə yaradıcılıq uğurları arzulayıram. Ali Məhkəmə ilə daha sıx əməkdaşlıq etməyə dəvət edirəm.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

# R.Y.RZAYEVİN AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN SƏDRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq **qərara alıram**:

Ramiz Yaqub oğlu Rzayev Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 19 aprel 2010-cu il**

# AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN MƏHKƏMƏ KOLLEGİYALARI SƏDRLƏRİNİN TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası Ali Məhkəməsinin aşağıdakı hakimləri həmin məhkəmənin məhkəmə kollegiyalarının sədrləri təyin edilsinlər:

Hikmət Abbas oğlu Mirzəyev - İnzibati-İqtisadi Kollegiyanın sədri
Şəlalə Ağakərim qızı Məmmədova - Mülki Kollegiyanın sədri
Şahin Yaşar oğlu Yusifov - Cinayət Kollegiyasının sədri
Tapdıq Şükür oğlu Mahmudov - Hərbi Kollegiyanın sədri

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 dekabr 2010-cu il**

## Azərbaycan Respublikası Ali Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNİN

## Q Ə R A R I

1. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1.1. 2010-cu il iyulun 21-də səlahiyyət müddəti bitən aşağıdakı hakimlər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Allahverdiyev Qəhrəman Əli oğlu,
Dadaşov İlqar Ağababaş oğlu,
Əliyev Fərhad Kazım oğlu,
Əsədov Bağır Həbib oğlu,
Hidayev Şahmurad Əzizağa oğlu,
Hüseynov Azər Soltanhəmid oğlu,
Kalbalıyev Aslan Kalbalı oğlu,
Məmmədova Şəlalə Ağakərim qızı,
Mirzəliyev Əsəd Abdulla oğlu,
Mirzəyev Hikmət Abbas oğlu,
Rəsulbəyova Nigar İmran qızı,
Rüstəmov Əli Məhəmməd oğlu,
Şadıyev Ənvər Əhməd oğlu.

1.2. 2010-cu il avqustun 28-də səlahiyyət müddəti bitən aşağıdakı hakimlər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər:

Əliyev Ələsgər Əliabbas oğlu,
Kərimov Fərhad Abdulkərim oğlu,
Qoldman Tatyana Aleksandrovna,
Yusifov Şahin Yaşar oğlu.

1.3. 2010-cu il sentyabrın 2-də səlahiyyət müddəti bitən Hafiz Qəmbər oğlu Nəsibov Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

1.4. Vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar olaraq Səadət İnayət qızı Bəktaşi və Mehparə Tofiq qızı Əhmədova Bakı Apellyasiya Məhkəməsinin hakimləri vəzifəsindən, İmran Teymurxan oğlu Hacıqayıbov Şirvan Apellyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək, 2010-cu il avqustun 28-dən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri təyin edilsinlər.

1.5. Vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar olaraq Gülzar Lətif qızı Rzayeva 2010-cu il avqustun 28-dən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərarın 1.1-ci bəndi 2010-cu il iyulun 21-dən, 1.2-ci, 1.4-cü və 1.5-ci bəndələri 2010-cu il avqustun 28-dən, 1.3-cü bəndi 2010-cu il sentyabrın 2-dən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri*** ***O.Əsədov***

***Bakı şəhəri, 22 iyun 2010-cu il***
***№ 1040-IIIQR***

## Azərbaycan Respublikası Ali Məhkəməsi hakiminin təyin edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNİN

## Q Ə R A R I

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 131-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Nəsirov İnqilab Maşallah oğlu Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu qərar 2011-ci il yanvarın 1-dən qüvvəyə minir.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri*** ***O.Əsədov***

***Bakı şəhəri, 21 dekabr 2010-cu il***
***№ 20-IVQR***

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti,

## tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxildir, mülki və iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmişdir və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyasından ibarətdir.

"Məhkəmələr və Hakimlər haqqında" Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin "mülki işlər üzrə, iqtisadi nübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyalarının" adları dəyişdirilərək müvafiq surətdə "mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya" adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə" 8 oktyabr 2010-cu il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər bir üç hakimdən ibarət olan məhkəmə tərkibləri yaranmışdır. Həmin qərara uyğun olaraq:

**Mülki kollegiya** - kollegiya sədrindən və on üç nəfər hakimdən ibarət beş məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və altı nəfər hakimdən ibarət iki məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Ali Məhkəmənin hakimlərinin sayı artırılaraq 41 hakim ştatı müəyyən edilmişdir.

Ali Məhkəmə 2010-cu ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 33 hakimdən ibarət tərkibdə fəaliyyət göstərmişdir.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

# Azərbaycan Respublikası Ali Məhkəməsinin strukturu



# Ali Məhkəmədə 2010-cu ildə baxılan işlər haqqında ümumi məlumat




Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda 2010-cu ildə cəmi **5 354** işə, o cümlədən:

- Cinayət kollegiyasında **881** nəfər haqqında **747** işə,
- Hərbi kollegiyada **103** nəfər haqqında **92** işə,
- Mülki kollegiyada **3 924** işə,
- İnzibati-iqtisad kollegiyasında **543** işə,
- Plenumda isə **48** işə baxılmışdır.

Ali Məhkəmədə 2010-cu ildə baxılmış işlərin sayı 2009-ci ilə nisbətən bütövlikdə **492** iş, **yəni 10,1 %** artmışdır.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2009-ci illə müqayisədə 2010-ci ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Cinayət kollegiyasında **100 iş, ( 15,4%) ;**

-Mülki kollegiyada **237 iş (6,4%) ;**

- İnzibati-iqtisad kollegiyasında **137 iş (33,7%) ;**

-Plenumda isə **25 iş ( 108,6%) artmış**;

-Hərbi kollegiyada isə **7 iş ( 7%) azalmışdır.**

Məhkəmə statistik məlumatlarından görünür ki, Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən 2010-cu ildə **11706** iş üzrə, **14313** nəfər, o cümlədən birinci instansiya ümumi məhkəmələr tərəfindən **10113** iş üzrə **12413** nəfər, hərbi məhkəmələr tərəfindən isə **1593** iş üzrə **1900** nəfər müxtəlif cəzalara məhkum edilmiş, bu müddətdə **34** nəfərə bəraət verilmişdir.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2010-ci ildə məhkum edilənlərin sayı 2009-cı ilə nisbəıən **183** nəfər azalmışdır.

Qeyd olunan müddətdə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələr tərəfindən məhkum edilənlərdən **2277** nəfər barəsində hökmlərə apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da birninci instansiya məhkəmələri tərəfindən ümumi məhkum edilənlərin **15,9% faizini** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə Respublikanın Apellyasiya Məhkəmələrində cinayət mühakimə icraatı qaydasında çıxarılmış **2674 nəfər** haqqında hökm və qərarlardan **984 nəfər** haqqında işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da apellyasiya məhkəmələrnində baxılmış həmin işlərin cəmi **36,7 faizini** təşkil edir.

**Göründüyü kimi, 2010-cu ildə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsində çıxarılmış hökmlərin 15,9 faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların 36,7 faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.**




Bundan əlavə Respublikanın birninci instansiya ümumi və iqtisad məhkəmələri tərəfindən 2010-cu ildə **96950** işə, o, cümlədən **88227** mülki işlərə, **8723** iqtisadi mübahisələrə dair işlərə baxılmışdır ki, bu da bütövlükdə 2009-cu ildə baxılmış mülki və iqtisadi mübahisələrə dair işlərdən **14834 (18%) iş** çoxdur.

Məlumatların əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya ümumi və iqtisad məhkəmələri tərəfindən baxılmış işlərdən, **9271** işə apellyasiya şikayəti əsasında müvafiq apellyasiya məhkəmələrində baxılmışdır ki, bu da birinci instansiya ümumi və iqtisad məhkəmələrində baxılmış mülki işlərin cəmi **9,5** faizini təşkil edir.

Qeyd olunan müddətdə apellyasiya məhkəmələrində mülki və iqtisadi mübahisələrə dair baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərarlardan verilmiş kassasiya şikayəti əsasında Ali Məhkəmənin müvafiq kollegiyaları tərəfindən **4467** işə baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış işlərin **48,1** faizini təşkil edir.

Göründüyü kimi, Respublikanın birninci instansiya və iqtisad məhkəmələri tərəfindən 2010-cu ildə baxılmış mülki və iqtisad işləri üzrə qəbul edilmiş qətnamə və qərarların cəmi **9,5** faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarının cəmi **48,1** faizinin qanuniliyi isə kassasiya qaydasında yoxlanılmışdır.

## Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət və hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Mülki və İnzibati İqtisadi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

# Ali Məhkəmənin məhkəmə kollegiyalarında 2010-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

## 1. Ali Məhkəmənin Cinayət kollegiyası

Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra **«CK»**) apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəmyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan işlərə (materiallara) kassasiya qaydasında baxılır.

Məlumatın əhatə etdiyit dövrdə CK-ya cəmi **1016 nəfər** haqqında **882 iş** daxil olmuşdur. Bunlardan **901 (88,7%) nəfər** haqqında **800 (90,7%) iş** kassasiya şikayətinə, **115 (11,3%)nəfər** haqqında **82(9,3%) iş** kassasiya protestinə əsasən daxil olmuşdur.

CK-da 2010-ci ildə kassasiya şikayət və protesti əsasında, **881 nəfər haqqında 747 cinayət işi üzrə yekun məhkəmə qərarı çıxarılmış, 26 nəfər** haqqında **25 iş** üzrə məhkəmə qərarlarından kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış, **48** kassasiya şikayəti qanunvericilikdə nəzərdə tutulan tələblərə uyğun olmadığından baxılmamış saxlanılmış, **87 nəfər** haqqında **87 iş** isə 2011-ci ilə qalıq keçmişdir.

2010-cı ildə CK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə **881 nəfər** haqqında olan **747 işə** baxılaraq, çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

**- 599 (67,9%) nəfər haqqında 498 (66,7%) iş üzrə qərarları dəyişdirilmədən saxlanılmış;**

**- 95 (10,8%) nəfər haqqında 87 (11,6%) iş üzrə qərar ləğv olunaraq, yeni apellyasiya baxışına qaytarılmış;**

**- 1 (0,1% ) nəfər haqqında 1 (0,1%) iş üzrə qərar ləğv olunaraq, iş üzrə icraata xitam verilmişdir;**
**- 59 (6,7 %) nəfər haqqında 50 (6,7%) iş üzrə qərarı dəyişdirilmiş;**
**- 101(11,5 %) nəfər haqqında 86 (11,5%) iş üzrə kassasiya şikayətindən imtina edildiyindən kassasiya şikayətinin icraatına xitam verilmiş;**
**- 26 (2,9%) nəfər haqqında 25 (3,3%) iş üzrə məhkəmə qərarlarından kassasiya şikayəti verilmə müddəti bərpa olunmamışdır.**

Bundan əlavə CK-da 2010-cu ildə baxılmış işlər üzrə yol verilmiş qanun pozuntuları ilə əlaqədar **5** xüsusi qərar çıxarılaraq aidiyyəti üzrə göndərilmişdir.






## *2010-ci ildə CK-da apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

## *C Ə D V Ə L*

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub | | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya | İş üzrə icraata xitam verilib | | | | |
| 1 | **Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsinin 2007-ci ilin 16 iyul tarixədək olan qərarlarından** | **14** | *2*<br>*14,2%* | | | | *4*<br>*28,6%* | | *8*<br>*57,2%* | |
| 2 | **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | **1** | *1*<br>*100%* | | | | | | | |
| 3 | **Bakı Apellyasiya Məhkəməsi** | **508** | *352*<br>*69,3%* | *56*<br>*11%* | *55*<br>*10,8%* | *1*<br>*0,2 %* | *54*<br>*10,6%* | *37*<br>*7,3%* | *9*<br>*1,8%* | 2 |
| 4 | **Gəncə Apellyasiya Məhkəməsi** | **86** | *59*<br>*68,6%* | *8*<br>*9,3%* | 8<br>*9,3%* | - | *11*<br>*12,8%* | *6*<br>*7%* | 2<br>*2,3%* | 1 |
| 5 | **Şırvan Apellyasiya Məhkəməsi** | *124* | *83*<br>*66,9%* | *15*<br>*12,1%* | *15*<br>*12,1%* | - | *16*<br>*12,9%* | *7*<br>*5,7%* | *3*<br>*2,4%* | 1 |
| 6 | **Sumqayıt Apellyasiya Məhkəməsi** | **107** | *76*<br>*71%* | *11*<br>*10,3%* | *11*<br>*10,3%* | - | *13*<br>*12,2%* | *6*<br>*5,6%* | *1*<br>*0,9%* | 1 |
| 7 | **Şəki Apellyasiya Məhkəməsi** | **38** | *24*<br>*63,2%* | *6*<br>*15,8%* | 6<br>*15,8%* | - | *3*<br>*2,4%* | 3<br>*2,4%* | 2<br>5,3% | - |
| 8 | **Azərbaycan Respublikası Ali Məhkəməsinin 1-ci instansiyasının 2000-ci ilin 1 sentyabr tarixədək olan qərarlarından** | 3 | *2*<br>*66,7%* | | | | | | *1*<br>*33,3%* | |
| | Cəmi | **881** | *599*<br>*67,9%* | *96*<br>*10,9%* | *95*<br>*10,8%* | *1*<br>*0,1 %* | 101<br>*11.5%* | *59*<br>*6,7%* | 26<br>*2,9%* | 5 |

**QEYD: Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da 2009-cu ildə 759 nəfər haqqında 647 işə baxıldığı halda, 2010-cu ildə 881 nəfər haqqında 747 işə baxılmışdır ki, bu da 2009-cu ildə baxılmış işlərin sayına görə 100 (15,4%)** iş, **şəxslərin sayına görə isə 122 nəfər artmışdır.**

## 2. Ali Məhkəmənin Hərbi kollegiyası

Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «**HK**») apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrinin işləri üzrə məhkəmə kollegiyalarının çıxardıqları hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.







HK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işlərinə kassasiya qaydasında baxılır.

2010-ci ildə HK-ya cəmi **109** nəfər haqqında **97** cinayət işi daxil olmuşdur.

Həmin işlərdən **93 (85,3%)** nəfər haqqında **85 (87,6%)** iş kassasiya şikayəti, **16 (14,7%)** nəfər haqqında **12 (12,4%)** iş isə kassasiya protesti ilə əlaqədar olmuşdur.

Məlumatın əhatə etdiyit dövrdə HK-ya daxil olmuş **109** nəfər haqqında **97** cinayət işindən, **103 (94,5%)** nəfər haqqında **92 (94,8%)** cinayət işinə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, kassasiya şikayəti üzrə **6 (5,5%)** nəfər haqqında **5 (5,2%)** cinayət işi isə 2011-ci ilə qalıq keçmişdir.

HK-da 2010-cu ildə yekun məhkəmə qərarları çıxarılmaqla baxılmış işlərin sayı 2009-cu ilə nisbətən **7(7%)** iş azalmışdır.

2010-cı ildə HK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə **103** nəfər haqqında **92** işə baxılaraq, çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

**- 70 (68%) nəfər haqqında 59 (64,1%) iş üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmış;**

**6 (5,8% ) nəfər haqqında 6 (6,6%) iş üzrə qərarı ləğv olunaraq, işlər yeni apellyasiya baxışına qaytarılmış;**

**- 19 (18,4%) nəfər haqqında 19 (20,6%) iş üzrə qərarlar isə məhkumlara təyin edilmiş cəzalarla əlaqədar dəyişdirilmiş,**

**- 8 (7,8%) nəfər haqqında 8 (8,7%) iş üzrə kassasiya şikayətləri geri götürülmüşdür.**

Bundan əlavə HK-da 2010-cu ildə baxılmış işlər üzrə yol verilmiş qanun pozuntuları ilə əlaqədar **1** xüsusi qərar çıxarılaraq aidiyyəti üzrə göndərilmişdir.

Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

***2010-ci ildə HK-da apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

***C Ə D V Ə L***

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub: Yeni apellyasiya | Ləğv olunub: İş üzrə icraata xitam verilib | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsinin 2007-ci ilin 16 iyul tarixədək olan qərarlarından | 1 | *1 100%* | | | | | | | |
| 2 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 3 | *3 100%* | | | | | | | |
| 3 | Bakı Apellyasiya Məhkəməsi | 23 | *17 73,9%* | - | *1 4,4%* | | | *5 21,7%* | | |
| 4 | Gəncə Apellyasiya Məhkəməsi | 38 | *22 57,9%* | - | *3 7,9%* | - | *3 7,9%* | *10 26,3%* | - | 1 |
| 5 | Şırvan Apellyasiya Məhkəməsi | 24 | *17 70,8%* | - | *1 4,2%* | - | *2 8,3%* | *4 16,7%* | | |
| 6 | Sumqayıt Apellyasiya Məhkəməsi | 12 | *8 66,7%* | - | *1 8,3%* | - | *3 25%* | | | |
| 7 | Şəki Apellyasiya Məhkəməsi | 2 | *2 100%* | | | | | | | |
| | Cəmi | 103 | *70 68%* | - | *6 5,8%* | - | *8 7,8%* | *19 18,4%* | - | 1 |

**QEYD: Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2009–cu ildə *124* nəfər haqqında 99 işə baxıldığı halda, 2010-cu ilə 103 nəfər haqqında 92 işə baxlımışdır ki, bu da 2009-cu ildə baxılmış işlərin sayına görə 7(7%) iş, şəxslərin sayına görə 21 (16,9%) nəfər azalmışdır.**

## 3. Ali Məhkəmənin Mülki kollegiyası

Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra «**MK**») apellyasiya instansiyası məhkəmələrinin mülki kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

MK-ya 2010-ci ildə **4515 iş** daxil olmuşdur ki, bu da 2009-cı ildə icraatda olmuş **4196** mülki işdən **319 iş** , **yəni 7,6 faiz çoxdur.**




Məlumatın əhatə etdiyit dövrdə MK-nın icraatda olan **4515** mülki işdən **3924 (86,9%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 78 (1,7%)** iş baxılmadan qaytarılmış, **8 (0,2%)** iş baxıçdan çıxarılmış, **505 (11,2%)** iş isə 2011-ci ilə qalıq keçirilmişdir.

MK-da 2009-cu ildə yekun məhkəmə qərarı çıxarılmaqla **3687** mülki işə baxılmışdırsa, 2010-cu ildə belə işlərin sayı **237 (6,4 %) iş artaraq, 3924** mülki iş təşkil etmişdir.

Aparılmış təhlillər nəticəsində müəyyən edilmişdir ki, 2009-cu ilə nisbətən 2010-ci ildə MK-nın icraatında olan işlərin saynının artması bəzi kateqoriyadan olan işlərin, o cümlədən mənzil mübahisələrinin, mülkiyyət hüququ və torpaq mübahisələri ilə bağlı işlərin sayının artması ilə əlaqədar olmuşdur.

Belə ki, MK-da 2010-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan **3924** mülki işdən **620 (15,8%)** iş mənzil mübahisələri, **209 (5,3%)** mülkiyyət hüququ ilə bağlı

mübahisələr, **457 (11,6%)** iş torpaq mübahisələri ilə **2638** iş isə digər mübahisələrlə əlaqədar olmuşdur.

MK-da 2010-ci ildə işlərə kassasiya qaydasında baxılmasının nəticələri aşağıdakı kimi olmuşdur:

- **3038 (77,4%)** iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;

**831 (21,2 %)** iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir. Onlardan:

- **776 (19,8 %)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- **42 (1,1%)** iş üzrə qətnamə ləğv edilərək yeni qərar qəbul edilmiş,

**1 (0,3%)** iş üzrə qətnamə ləğv edilərək, (ərizə) iddia baxılmamış saxlanılmış;

- **12 (1,1%)** iş üzrə qətnamə ləğv edilərək iç üzrə icraata xitam verilmiş;




- **20 (0,5%)** iş üzrə qətnamə və qərardad dəyişdirilmiş,

**35 (0,9%)** iş üzrə şikayətçilər kassasiya şikayətindən imtina etdikləri üçün kassasiya icraatına xitam verilmişdir.

Bundan əlavə MK-da 2010-cu ildə baxılmış işlər üzrə müəyyən edilmiş qanun pozuntuları ilə əlaqədar olaraq **5** xüsusi qərar çıxarılaraq aidiyyəti üzrə göndərilmişdir. Bu məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur.

## *2010-ci ildə MK-da apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

## *C Ə D V Ə L*

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə Saxlanılıb | Ləğv olunub | | | | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Yeni apellyasiya | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsinin 2007-ci ilin 16 iyul tarixədək olan qərarlarından** | **10** | *6 60%* | *3 30%* | - | - | - | 1 *10%* | - | - |
| 2 | **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | **7** | *7 100%* | - | - | - | - | - | - | - |
| 3 | **Bakı Apellyasiya Məhkəməsi** | **2 401** | *1859 77,5%* | *464 19,3%* | *36 1,5%* | - | *9 0,4%* | *25 1%* | *8 0,3%* | 4 |
| 4 | **Gəncə Apellyasiya Məhkəməsi** | **497** | *391 78,6%* | *95 19,1%* | *2 0,4%* | - | *2 0,4%* | *2 0,4%* | *5 1%* | - |
| 5 | **Şirvan Apellyasiya Məhkəməsi** | **298** | *229 76,8%* | *66 22,1%* | - | 1 *0,3%* | - | - | *2 0,6%* | - |
| 6 | **Sumqayıt Apellyasiya Məhkəməsi** | **490** | *375 76,5%* | *103 21%* | *3 0,4%* | - | *1 0,2%* | *5 1%* | *3 0,4%* | - |
| 7 | **Şəki Apellyasiya Məhkəməsi** | **221** | *171 77,3%* | *45 20,3%* | *1 0,4%* | - | - | *2 0,9%* | *2 0,9%* | 1 |
| | **Cəmi** | *3924* | *3038 77,4%* | *776 19,8%* | *42 1,1%* | *1 0,03%* | *12 0,3%* | *35 0,9%* | *20 0,5%* | 5 |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin MK-da 2009–ci ildə **3 687işə** baxıldığı halda, 2010-cı ilə **3 924 işə** baxılmışdır ki, bu da 2010-ci ildə baxılmış işlərin sayına görə **237 (6,4%) iş çoxdur**.

Statistik məlumatların təhlili göstərir ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2009-cı ildə **942** olduğu halda, bu rəqəm **2010-ci ildə 831** olmuş, yəni **111 (11,7%)** iş azalmışdır.

2010-cu ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən **46 096 manat 17 qəpik** dövlət rüsumu ödənilmişdir.

## 4. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası

Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasında (bundan sonra «**İİK**») apellyasiya instansiyası məhkəmələrinin inzibati iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasında qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.




**İİK-ya 2010-ci ildə 607 iqtisadi iş daxil olmuşdur ki, bu da 2009-cı ildə icraatda olmuş 461 işdən 146 iş (31,7%) çoxdur.**

İİK-nın icraatında olan **607** işdən **543 (89,5%) işə** yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **1 (0,1%) iş** kassasiya icraatından cıxarılmış, **7 (1,3%) iş** baxılmadan geri qaytarılmış, **56 (9,1%) iş** isə 2011-ci ilə qalıq keçirilmişdir.

İİK-da 2009-cı ildə yekun məhkəmə qərarı çıxarılmaqla **406** işə baxılmışdırsa, 2010-ci ildə belə işlərin sayı **137 (33,7 %) iş artaraq, 543** iş təşkil etmişdir.

Hesabat dövründə yekun məhkəmə qərarı çıxarılmaqla İİK-da baxılan **543** işdən **133 (24,5%) iş** borc mübahisələri, **57 (10,5%) iş** müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının və onların vəzifəli şəxslərinin qərarları və hərəkətləri (hərəkətsizlikləri) ilə əlaqədar mübahisələrə dair işlər üzrə, **110 (20,3%) iş** vergi ödəmələri, qalan **243 (44,7%) iş** isə digər məsələlərlə əlaqədar olmuşdur.

İİK-da cəmi kassasiya qaydasında baxılmış **bu müddətdə 543 iş** üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki, məlumatın əhatə etdiyi dövrdə;

- **362 (66,6%) iş** üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;

**161 (29,7 %) iş** üzrə qətnamə və ya qərardad ləğv edilmiş, onlardan;

**- 127 (23,4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;**

**- 12 (2,2%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;**




**- 18 (3,3%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;**

**- 4 (0,8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir.**

**- 11 (2%) iş üzrə qətnamə dəyişdirilmiş;**

**- 9 (1,7%) iş üzrə isə şikayətçilər kassasiya şikayətindən imtina etdikləri üçün kassasiya icraatına xitam verilmişdir.**

**Bu məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur.**

***2010-ci ildə İİK-da apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

***C Ə D V Ə L***

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Ləğv olunub | | | | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Yeni apellyasiya | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **Azərbaycan Respublikasının İqtisad Məhkəməsinin 2007-ci ilin 16 iyul tarixədək olan qərarlarından** | *2* | *-* | *2*<br>*100%* | | | | | | |
| 2 | **Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi** | *1* | *-* | *1*<br>*100%* | | | | | | |
| 3 | **Bakı Apellyasiya Məhkəməsi** | *394* | *268*<br>*67,8%* | *93*<br>*23,8%* | *8*<br>*2%* | *10*<br>*2,5%* | *1*<br>*0,3%* | *5*<br>*1,3%* | *9*<br>*2,3%* | |
| 4 | **Gəncə Apellyasiya Məhkəməsi** | *32* | *25*<br>*78,2%* | *5*<br>*15,6%* | - | *1*<br>*3,1%* | - | - | *1*<br>*3,1%* | |
| 5 | **Şırvan Apellyasiya Məhkəməsi** | *43* | *28*<br>*65,1%* | *8*<br>*18,6%* | *3*<br>*7,1%* | *1*<br>*2,3%* | *1*<br>*2,3%* | *1*<br>*2,3%* | *1*<br>*2,3%* | |
| 6 | **Sumqayıt Apellyasiya Məhkəməsi** | *54* | *28*<br>*51,9%* | *15*<br>*27,8%* | *1*<br>*1,8%* | *6*<br>*11,1%* | *1*<br>*1,8%* | *3*<br>*7,1%* | - | |
| 7 | **Şəki Apellyasiya Məhkəməsi** | *17* | *13*<br>*76,5%* | *3*<br>*17,6%* | - | - | *1*<br>*5,9%* | - | - | |
| | **Cəmi** | *543* | *362*<br>*66,6%* | *127*<br>*23,4%* | *12*<br>*2,2%* | *18*<br>*3,3%* | *4*<br>*0,8%* | *9*<br>*1,7%* | *11*<br>*2%* | |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2010–cı ildə **406 işə** baxıldığı halda, 2010-cu ildə **543 işə** baxılmışdır , bu da 2009-cu ildə baxılmış **işlərin sayına görə 137 (33,7%) iş çoxdur.**

**Statistik məlumatları müqayisəli təhlili göstərir ki, apellyasiya instansiyası məhkəmələrinin** ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2009-cu ildə **119** olduğu halda, bu rəqəm 2010-cu ildə ***161,*** yəni **42 iş (35,5%) artımışdir.**

**2010-ci ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 5 366 manat_05 qəpiq** dövlət rüsumu ödənilmişdir.

## *5. Ali Məhkəmənin Plenumu*

### Ali Məhkəmənin Plenumunun işi haqqında məlumat

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun 79-cu maddəsinə əsasən **Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

2010-cu ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin 7 Plenum iclası keçirilmişdir.

Ali Məhkəmənin Plenumunun 25 yanvar 2010-cu il tarixli iclasında Ali Məhməmənin kollegiyalarında 2009-cu ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair müvafiq kollegiya sədrlərinin məlumatları dinlənilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Plenum iclaslarında 48 işə, o cümlədən 36 mülki, 10 cinayət və 2 iqtisad işlərinə baxılaraq müvafiq qərarlar qəbul edilmişdir.

Qeyd edilən müddətdə baxılmış mülki işlərdən 7-si əlavə kassasiya şikayətinə, 1-i Ali Məhkəmənin sədrinin təqdimatına, 21-i isə yeni açılmış hallara dair ərizəyə əsasən baxılmışdır. Bu işlər üzrə Ali Məhkəmənin mülki kollegiyasının 15 qərarı ləğv edilərək, iş yenidən baxılması üçün göndərilmiş, 14 iş üzrə məhkəmə qərarları dəyişdirilmədən saxlanılmışdır.

Ali Məhkəmənin Plenum iclaslarında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarına əsasən hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə icraat qaydasında 6 mülki işə baxılaraq həmin işlər üzrə kassasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək işlər yeni məhkəmə baxışına göndərilmişdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən 2010-cu ildə Plenumun iclasında 1 **mülki işə** baxılmış, həmin mülki işə məhkəmədə yenidən baxılması zərurətinin olmaması müəyyən edilmişdir.

2010-cu ildə Ali Məhkəmənin sədrinin təqdimatına əsasən Ali Məhkəmənin Plenum iclasında **2** iqtisad işinə baxılmış, həmin işlər üzrə kassasiya və apellyasiya instansiyası məhkəmələrinin qərarları ləğv edilərək, bu işlər yeni apellyasiya baxışına qaytarılmışdır.

Yuxarıda qeyd olunduğu kimi Ali Məhkəmənin Plenum iclaslarında 2010-cu ildə **10 cinayət işinə,** o cümlədən əlavə kassasiya şikayəti üzrə **3 işə,** əlavə kassasiya protesti əsasında **1 işə**, yeni açılmış hallar üzrə ərizələrə əsasən **2 işə,** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən isə **4 işə** baxılmış, həmin işlərdən **7 iş** üzrə məhkəmə qərarları ləğv edilərək bu işlər yeni məhkəmə baxışına göndərilmiş, **1 iş** üzrə əlavə kassasiya protesti qismən təmin edilərək qərar dəyişdirilmiş, **2 iş** üzrə icraata xitam verilmişdir.

Plenumun 15 mart 2010-cu il tarixli qərarı ilə Ali Məhkəmənin hakimləri Ş.Məmmədova və A.Kalbalıyev, Apellyasiya Məhkəmələrinin hakimləri R.Səfərov və R.Məmmədov, Məhkəmə Hüquq Şurasının üzvləri təyin olunmuşlar.

Ali Məhkəmənin Plenumunda 30 aprel 2010-cu il tarixli iclasında Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Məmmədova Südabə Əlislam qızının hakimlik fəaliyyətinə vaxtından əvvəl xitam verilməsinə dair Məhkəmə-Hüquq Şurasının 4 fevral 2010-cu il tarixli qərarından verdiyi şikayətə baxılaraq şikayətin təmin olunmaması barədə qərar qəbul edilmişdir.

Bundan əlavə Ali Məhkəmənin Plenumunun 2 iyun 2010-cu il tarixli iclasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 178.8-ci maddəsinin xüsusi konstitusiya icraatı qaydasında şərh edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verilməsi haqqında məsələ müzakirə edilərək, müvafiq qərar qəbul olunmuşdur.

Ali Məhkəmənin Plenumunun 08 oktyabr 2010-cu il tarixli iclasında Respublikanın Məhkəmələri tərəfindən "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı 2009-cu ildə baxılmış işlər üzrə məhkəmə təcrübəsi haqqında" məsələ müzakirə edilərək qərar qəbul edilmiş, tövsiyyə xarakterli bu qərar Respublikanın məhkəmələrinə göndərilmişdir.

Plenumda o cümlədən Bəktaşı Səadət İnayət qızının və Əsədov Mehdi Fəyyaz oğlunun Vəkillərin İxtisas Komissiyasına üzv təyin edilməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi yanında Elmi Məsləhət Şurasının tərkibinin təsdiq edilməsi barədə, Azərbaycan Respublikası Ali Məhkəməsi Bülletenin redaksiya heyətinin müəyyən ediləməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyalarının tərkibinin yenidən təşkili barədə qərarlar qəbul edilmişdir.

Bundan əlavə Ali Məhkəmənin 11 noyabr 2010-cu il tarixli Plenum iclasında Respublikanın birinci instansiya məhkəmələrinə yeni təyin olunmuş hakimlərin andı qəbul edilmişdir.

## Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunda 2010-cu ildə baxılmış işlər haqqında müqayisəli MƏLUMAT

| İşlərin baxılma əsasları | 2009-cu il | 2010-cu il | Fərq | |
|---|---|---|---|---|
| | | | azalma | artma |
| Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış mülki işlər | 6 | 29 | | 23 |
| Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış iqtisad işləri | - | 2 | | 2 |
| Əlavə kassasiya şikayəti və protestlərə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış cinayət işləri | 2 | 6 | | 4 |
| Konstitusiya Məhkəməsinin qərarlarına əsasən mülki işlər üzrə qüvvədən düşmüş hesab edilən qərarlarla əlaqədar | 8 | 6 | 2 | - |
| İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən baxılmış cinayət işləri | 2 | 4 | - | 2 |
| İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən baxılmış mülki işlər | 5 | 1 | 4 | |
| Cəmi | 23 | 48 | 6 | 25 |

## Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmədə onun fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə birinci kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Dövlətin informasiya texnologiyaları sahəsində siyasətinin əsas məqsədi informasiya cəmiyyətinə keçid və ölkənin dünya informasiya cəmiyyətinə inteqrasiyası təşkil edir. İnkişaf etmiş ölkələrin təcrübəsindən göründüyü kimi bunun üçün dövlət orqanlarının informasiya texnologiyaları sahəsindəki siyasətin informasiya texnologiyalarının əsas komponentlərinə – texnoloji və hüquqi normativ - tarazlaşmış tənzimləyici təsiri əsas rol oynayır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuşdur. Ali Məhkəmə rəhbərliyinin, aparatının və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin effektivliyinin artırılması təşkil edir.

Bu isə «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı və

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan) yerinə yetirilməsi ilə birbaşa bağlı olub aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- mühakimə üsulunun təkmilləşdirilməsi və ədalət mühakiməsinin daha da əlyetərli olmasının təmin olunması;
- hakimlərin və məhkəmə aparatının fəaliyyətinin effektivliyinin artırılması;
- məhkəmə sisteminin informasiya fəzasında eyniliyinin təmin olunması;
- əhali və təşkilatlar üçün məhkəmələrin daha da açıqlılığının təmin olunması.

Ali Məhkəmədə müasir informasiya texnologiyalarının tətbiqinin təmin olunması üçün bir sıra işlər yerinə yetirilir:

- məhkəmə işlərinin, vətəndaşların və təşkilatların ərizə və şikayətlərinin baxılma müddətinin müasir informasiya-kommunikasiya texnologiyalarının – internet, elektron sənəd dövriyyəsi, böyük həcmli məlumatların işlənməsi və saxlanması, video-koferens əlaqə və s. texnologiyaların kompleks şəkildə tətbiqi vasitəsi ilə qısaldılması;
- məhkəmədə kargüzarlığın və məhkəmə statistikasının məlumatlarının keyfiyyətinin artırılması;
- Ali Məhkəmənin digər instansiya məhkəmələri, Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi və digər dövlət idarəetmə orqanları ilə məlumat mübadiləsinin operativliyinin artırılması;
- Qərarların qəbul edilməsi üçün müasir məlumat-analitik metodlarının yaradılması vasitəsi ilə Ali Məhkəmənin fəaliyyətinin bütün sahələrində administrativ-idarəetmə proseslərinin məlumat təminatının keyfiyyətinin yüksəldilməsi;
- Ali Məhkəmənin avtomatlaşdırılmış məlumat sisteminin təhlükəsizliyinin kompleks şəkildə təmin olunması;
- Avtomatlaşdırılmış idarəetmə sisteminin qarşısında qoyulmuş tələblərə uyğun olaraq informasiyalaşdırma vasitələrinin etibarlılığının və səmərəliliyinin kompleks şəkildə artırılması, təkmilləşdirilməsi və informasiya-kommunikasiya vasitələrinin inkişaf etdirilməsi üçün maddi-texniki və maliyyə təminatının olması;

- müasir informasiya texnologiyalarının tətbiqi sahəsində effektivliyinin artırılması məqsədi ilə hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisasının artırılması.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) nəzərdə tutulmuş " Ali Məhkəmənin "Elektron kargüzarlıq və sənəd dövriyyəsi" sisteminin təkmilləşdirilməsi, daha müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğunlaşdırılması" bəndinin yerinə yetirilməsi və informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər yerinə yetirilmiş və 2011-2012-ci illərdə yerinə yetiriləcək işlərin planı hazırlanmış, mövcud "Elektron sənəd dövriyyəsi və kargüzarlıq sistemi ", "Təhlil və statistika sistemi", "Hüquq ədəbiyyatı elektron kitabxana sistemi", "İnternet portal www.supremecourt.gov.az", "Video konfrans-rabitə sistemləri" daha da təkmilləşdirilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən sonra Aparat və İşlər İdarəsi 2010-cu ildə aşağıdakı tərkibdə fəaliyət göstərmişdir :

**Ali Məhkəmənin Aparatı**

1. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2. Beynəlxalq əlaqələr şöbəsi
3. Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
4. Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5. Dövlət qulluğu və kadr məsələləri sektoru
6. Məhkəmə nəzarətçiləri sektoru
7. Ali Məhkəmə Plenumunun katibliyi
8. Mülki kollegiyanın katibliyi
9. Inzibati-İqtisadi kollegiyasının katibliyi
10. Cinayət kollegiyasının katibliyi
11. Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi**

1. İnformasiya Texnologiyaları şöbəsi
2. Maliyyə-Təsərrüfat şöbəsi
3. Ali Məhkəmənin Xatirə Muzeyi
4. Kitabxana
5. Arxiv
6. Ali Məhkəmənin mətbəəsi

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Vətəndaşların qəbulu və müraciətlərilə iş şöbəsinə 18918 ərizə şikayət və müraciət daxil omuşdur ki, bu göstərici 2009-cu illə müqayisədə 2244 (10,6 %) azalmışdır.

Vətəndaşalrın ərizə, şikayət və digər müraciətlərinə baxılmasına, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsinə diqqət artırılmışdır.

Bu müddətdə ərizə, şikayət və digər müraciətlərin 13612-nə (72%) Ali Məhkəmənin Aparatında, qalan 5306-na (28%) isə Ali Məhkəmənin müvafiq kollegiyalarında baxılmışdır.

Bundan əlavə Ali Məhkəmədə hər həftə vətəndaşların qəbulu təmin edilmiş və qeyd olunan müddətdə qəbula yazılmış 57 nəfər Ali Məhkəmənin rəhbərliyi tərəfindən qəbul edilərək, onlara müraciət etdikləri məsələlər üzrə müvafiq izahlar verilmişdir.

# Ali Məhkəmənin 2010-cu ildə beynəlxalq əlaqələri

**Ali Məhkəmənin beynəlxalq hüquq təşkilatları ilə əlaqələri ildən ilə genişləndirilir və inkişaf etdirilir. Qarşılıqlı faydalı əməkdaşlıq əsasında qurulan bu əlaqələr Ali Məhkəmə sisteminin daha da müasirləşdirilməsinə və təkmilləşdirilməsinə kömək etmişdir. 2010-cu ildə dünyanın bir sıra inkişaf etmiş ölkələrinin, xüsusilə Avropa İttifaqına daxil olan ölkələrin məhkəmə və hüquq təşkilatları ilə səmərəli münasibətlər yaradılmış, həmin ölkələrə qarşılıqlı səfərlər və təcrübə mübadilələri təşkil edilmişdir.**

**Yanvarın 14-də** ölkəmizdə səfərdə olan Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun direktoru Mattias Vekkerlinq və fondun Proqram rəhbəri Britta Şvartz Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

**Yanvarın 25-26-da** Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əli Seyfəliyev Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciətinə əsasən Azərbaycan nümayəndə heyyətinin tərkibində Avstriyanın paytaxtı Vyanada keçirilən Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı BMT Konvensiyası və Əlavə Protokollarının həyata keçirilməsinə nəzarət üçün mümkün mexanizmlər üzrə Açıq Hökümətlərarası Ekspert Qrupunun 2-ci müşavirəsində iştirak etmişdir.

**Yanvarın 26-da** ölkəmizdə səfərdə olan Litva Seimasının aparatının əmakdaşları - Alvidas Lukoşaitis, Yuliyus Glebovas və Yonas Çekuolis Ali Məhkəmə aparatının rəhbəri vəzifəsini icra edən Əlirza Kərimovla görüşmüşlər.

Alvidas Lukoşaitis qeyd etmişdir ki, 2009-cu il iyulun 27-də Azərbaycan Respublikasının Milli Məclisi, Litva Respublikasının Seiması və Avropa Komissiyası arasında "Twinning" layihəsinin həyata keçirilməsinə dair müqavilə imzalanmışdır. Səfərin məqsədi də layihə üzrə fəaliyyət planı çərçıvəsində Avropa İttifaqının təcrübəsindən yararlanaraq Azərbaycan Respublikası üçün qanunvericilik prosesində münasib "erkən xəbərdarlıq" modelinin müəyyən olunması və davamlı şəkildə məlumatlandırılması mexanizminin işlənib hazırlanmasıdır.

**Yanvarın 26-da** ölkəmizdə səfərdə olan Dünya Bankının Məhkəmə Sisteminin müasirləşdirilməsi layihəsi üzrə Tapşırıq Qrupunun rəhbəri Deyvid Bernşteyn və həmin layihənin məhkəmə binaları üzrə məsləhətçisi Cerald Taker Ali Məhkəmənin sədri Ramiz Rzeyavlə görüşmüşlər.

Deyvid Bernşteyn vurğulamışdır ki, layihə çərçivəsində məhkəmə sistemində müasir informasiya texnologiyalarının tətbiqi ilə bağlı sənədlərin və baxılacaq işlərin idarə olunmasında daha təkmil elektron sistemin yaradılmasını nəzərdə tutan yeni layihə hazırlanacaqdır.

**Yanvarın 28-dən 30-dək** Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin və Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Fransanın Strasburq şəhərində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 2010-cu il üzrə məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli iclasda iştirak etmiş və Avropa Məhkəməsinin sədri Jan-Pol Kosta ilə görüşmüş, tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

**Fevralın 8-də** ölkəmizdə səfərdə olan Norveç Krallığının Ədliyyə və Polis İşləri üzrə naziri Knut Storbergetin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Norveçli qonaqlar Ali məhkəmənin yüksək statusuna uyğun yeni inzibati binasını gəzmiş, məhkəmə tarixi muzeyinə baxmış, hakimlərin iş şəraiti ilə tanış olmuşlar.

**Fevralın 18-19-da** İsveçrənin İnterlaken şəhərində "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin gələcəyi" mövzusunda keçirilmiş konfransda Ali Məhkəmənin sədri Ramiz Rzayev və Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov iştirak etmişlər. Tədbir çərçivəsində Avropa Şurasının rəhbər şəxsləri, habelə ayrı-ayrı ölkələrin nümayəndələri ilə görüşlər keçirilərək əməkdaşlığa dair faydalı fikir mübadiləsi aparılmışdır.

**Fevralın 21-28-də** Avstriyanın paytaxtı Vyanada BMT-nin Narkotiklərə və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin baş qərargahında və İNTERPOL-un Fransa Respublikasının Lion şəhərində yerləşən baş qərargahında keçirilmiş tanışlıq səfərlərində Ali Məhkəmənin hakimi Tapdıq Mahmudov iştirak etmişdir.

**Martın 23-25-də** Fransanın Strasburq şəhərində keçirilmiş Kibercinayətkarlığa qarşı əməkdaşlıq üzrə Oktobus Əlaqə konfransında Ali Məhkəmənin hakimi Əli Seyfəliyev iştirak etmişdir.

**Aprelin 16-da** Ali Məhkəmənin mülki işlər üzrə məhkəmə kollegiyasının sədri Şəlalə Məmmədova ölkəmizdə səfərdə olan Ümumdünya Əqli Mülkiyyət Təşkilatının ekspertləri ilə görüşmüşdür.

Görüşdə əqli mülkiyyət sahəsində hüquqların qorunması, kontrafakt məhsullara qarşı mübarizə məsələləri müzakirə olunmuşdur.

**Aprelin 27-də** Ali Məhkəmədə ölkəmizdə səfərdə olan Avropa Şurası Korrupsiyaya qarşı mübarizə üzrə dövlətlərarası qrupun (GREGO) nümayəndələri Ali Məhkəmənin, Bakı Apellyasiya Məhkəməsinin və birinci instansiya məhkəməsinin hakimləri ilə görüşmüşlər.

Görüşdə beynəlxalq hüquq normalarının və dövlətlər tərəfindən qəbul edilmiş beynəlxalq müqavilələrin, xüsusilə korrupsiya ilə mübarizə haqqında Avropa Konvensiyasının milli məhkəmə icraatında tətbiqi məsələləri diqqət mərkəzində olmuşdur.

**Aprelin 28-də** Bakı Dövlət Universitetinin və Qafqaz Universitetinin təşkilatçılığı ilə keçirilən ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Hüquq elminin müasir problemləri" II beynəlxalq konfransının bir qrup nümayəndəsi Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Qafqaz Universitetinin rektoru, professor Ahmed Saniç, Gazi Universitetinin rektoru, professor Rza Ayhan, Türkiyə Respublikası Ali Məhkəməsinin hakimi Uğur Sayın və başqaları qloballaşan dünyada hüquq elminin müasir problemləri ilə bağlı fikirlərini bölüşmüşlər.

Ali Məhkəmənin sədri konfrans iştirakçılarını maraqlandıran suallara ətraflı cavab vermişdir.

**Aprelin 28-də** ölkəmizdə səfərdə olan Brigitte Allemandın sədrliyi ilə fəaliyyət göstərən UFE-nin bir qrup nümayəndəsi Carole Malet Soldavininın təşkilatçılığı və Ali Məhkəmənin hakimi Nigar Rəsulbəyovanın müşayiəti ilə Ali Məhkəmənin yüksək statusuna uyğun yeni inzibati binasını gəzmiş, məhkəmə tarixi muzeyinə baxmış, məhkəmə iclas zallarının şəraiti ilə tanış olmuşlar. Fransalı xanımlar bu tanışlıqdan məmnun qaldıqlarını bildirmişlər.

**Mayın 17-də** Avropa Şurası Bakı Ofisinin rəhbəri Veronika Kotek Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Avropa Şurası Bakı Ofisinin rəhbəri Veronika Kotek Azərbaycanda məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərlə maraqlanmış, qarşılıqlı əlaqələrin davam etdiriləcəyini vurğulamışdır.

**Mayın 17-dən 21-dək** Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlham Cəfərov Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müraciətinə əsasən Avstriyanın paytaxtı Vyanada BMT-in Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə Komissiyanın 19-cu iclasının və iclas çərçivəsində "Mədəni irsin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda tematik müzakirələrdə iştirak etmişdir.

**Mayın 24-də** ölkəmizdə səfərdə olan Avropa Şurası İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə baş direktoru Filip Buoya Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.

Görüşdə Avropa Məhkəməsinin presedent hüquqlarının ardıcıllığından, İnterlaken konfransında qəbul edilmiş Avropa və yerli səviyyələrdə tədbirlərə dair fəaliyyət planını əhatə edən Siyasi Bəyannamənin icrasından və əhəmiyyətindən, birgə treyninq və konfransların keçirilməsi zərurətindən söhbət aparılmışdır.

**Mayın 25-də** ölkəmizdə səfərdə olan MDB ölkələri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının İcraçı katibi Valeriy İvanoviç Yeroxin Ali Məhkəmənin Aparat rəhbəri vəzifəsini müvəqqəti icra edən Əlirza Kərimovla görüşmüşdür.

Görüşdə qarşılıqlı münasibətlər müzakirə olunmuşdur.

**İyunun 17-də** Nyu York şəhərində keçirilən Mütəşəkkil Cinayətkarlıq üzrə Xüsusi yüksək səviyyəli görüşdə Ali Məhkəmənin Hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyasının sədri Şahin Yusifov iştirak etmişdir.

**İyunun 25-də** Ali Məhkəmənin hakimi Müzəffər Ağazadə Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı ofisinin hüquq məsələləri üzrə mütəxəssisi cənab Rolf B.Merckolla görüşmüşdür.

Görüşdə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

**İyulun 13-də** ölkəmizdə səfərdə olan Dünya Bankının ədliyyə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Klaus Deker və məsləhətçisi Kler Qreer Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Ali Məhkəmənin sədri müasir informasiya texnologiyaları sahəsində Ali Məhkəmədə həyata keçirilən tədbirlərdən danışmışdır.

Dünya Bankının ədliyyə sisteminin müasirləşdirilməsi layihəsinin rəhbəri Klaus Deker Ali Məhkəmədə yeni informasiya texnologiyalarının tətbiqindən razı qaldığını qeyd etmişdir.

**İyulun 14-də** ölkəmizdə səfərdə olan Moldova Respublikası Konstitusiya Məhkəməsinin sədri Dimitri Pulberenin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayeylə görüşmüşdür.

Moldova Konstitusiya Məhkəməsinin sədri Dimitri Pulbere iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını bildirmişdir.

**Avqustun 12-də** ölkəmizdə səfərdə olan Niderland Krallığının Ədliyyə naziri Eanst Maurits Henriuts Hirsch Ballinin başçılıq etdiyi nümayəndə heyətinin üzvləri Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər.

Niderland Krallığının Ədliyyə naziri Azərbaycanda məhkəmə sistemində aparılan islahatlara maraq göstərmiş, məhkəmə-hüquq sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləmişdir.

**Sentyabrın 25-də** Milli Məclisə seçkilərlə əlaqədar Ali Məhkəmədə Venesiya Komissiyası ilə birlikdə beynəlxalq konfrans keçirilmişdir. Konfransda Ali Məhkəmənin sədri Ramiz Rzayev, Azərbaycan Respublikası Prezidenti Administrasiyası hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Venesiya Komissiyasının katibi Tomas Markert, Bolqarıstan Konstitusiya Məhkəməsinin sədri, Venesiya Komissiyasının üzvü Yevgeni Tançev, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi Xanlar Hacıyev, Venesiya Komissiyasının eksperti Serhiy Kalçenko, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əsəd Mirzəliyev məruzələrlə çıxış etmişdilər.

**Oktyabrın 25-dən noyabrın 13-dək** Almaniyanın Berlin şəhərində hüquqşunaslar üçün keçirilən qış akademiyasında (qış kursları) Ali Məhkəmənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Günay Rzayeva iştirak etmişdir.

**Oktyabrın 29-da** Milli Məclisə seçkilərlə əlaqədar ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyindən müşahidə missiyasının qərargah rəisi Yevgeniy Slabodanın başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkmənin Mülki Kollegiyasının sədri Şəlalə Məmmədova ilə görüşmüşdür.

Səmərəli fikir mübadiləsi şəraitində keçən görüşdə insan hüquqlarının təmin olunması və Milli Məclisə keçiriləcək seçkilərlə bağlı faydalı müzakirələr aparılmışdır.

**Noyabrın 15-17-də** Azərbaycan Respublikası Prezident Administrasiyasını, Milli Məclisi, Ali Məhkəməni, Ədliyyə Nazirliyini, Fövqəladə Hallar Nazirliyini, Nəqliyyat Nazirliyini, Ombudsman Aparatını, Vəkillər Kollegiyasını, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətini və mətbuatı təmsil edən geniş tərkibdə nümayəndə heyəti Ukraynanın paytaxtı Kiyev şəhərində "İnzibati məhkəmə icraatı və inzibati hüququn tətbiqi təcrübəsi" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmişdir. Ali Məhkəmənin sədri Ramiz Rzayev ayrı-ayrı ölkələrin nümayəndələri ilə görüşlərdə və söhbətlərdə Azərbaycanda inzibati məhkəmə icraatı haqqında geniş məlumat vermişdir.

**Noyabrın 17-19-da** Ali Məhkəmənin hakimi İlqar Qılıcov Strasburqda keçirilən Avropa Hakimlərinin Məşvərətçi Şurasının 11-ci Plenar iclasında iştirak etmişdir. İclasda Avropa ölkələrinin inteqrasiya məsələləri ətrafında məsləhətləşmələr aparılmışdır.

**Dekabrın 16-da** ölkəmizdə səfərdə olan Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) Gürcüstan ofisinin proqram işçisi Şalva Papuaşvili və Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin (GTZ) Azərbaycan ofisinin layihə bürosunun rəhbəri Şakir Səfərbəyov Ali Məhkəmənin Aparat rəhbəri Əlirza Kərimovla görüşmüşlər.

Görüşdə əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

## Milli Məclisə Seçkilərlə əlaqədar Ali Məhkəmədə Venesiya Komissiyasi ilə birlikdə Beynəlxalq Konfrans



Sentyabrın 25-də keçirilən Konfransı giriş sözü ilə açan Ali Məhkəmənin sədri Ramiz Rzayev Venesiya Komissiyasının nümayəndələrini salamlamış və bildirmişdir ki, seçki hər bir ölkənin ictimai-siyasi həyatında mühüm hadisə, eyni zamanda, vətəndaşların dövlətin və ictimai həyatın idarə olunmasında kütləvi iştirak formalarından biridir. Seçkinin Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavillərin tələbinə, Avropa standartlarına uyğun aparılması dövlətimizin əsas məqsədlərindən biridir.

R.Rzayev vurğulamışdır ki, respublikamızda seçki öncəsi mühit kifayət qədər demokratikliyi ilə səciyyələnir. Parlament seçkilərinin qanunvericiliyə uyğun şəkildə aparılması üçün Azərbaycan hakimiyyəti tərəfindən lazımi tədbirlər görülür. Atılan bütün addımlar seçki qanunvericiliyinin təkmilləşdirilməsinə, seçki mühitinin demokratikliyinə xidmət edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov çıxış edərək konfransın Avropa Şurasının Azərbaycanda noyabr ayında keçiriləcək parlament seçkilərinə dəstəklə bağlı Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlər çərçivəsində təşkil edildiyini bildirmişdir. Qeyd etmişdir ki, Fəaliyyət Planı Azərbaycan dövlət qurumlarının Avropa Şurası ilə əməkdaşlığı nəticəsində hazırlanmışdır və seçkilərə dair bütün sahələri əhatə edir. Fəaliyyət Planına uyğun olaraq Venesiya Komissiyası ilə birlikdə Prezident Administrasiyası, Mərkəzi Seçki Komissiyası, Milli Televiziya və Radio Şurası tərəfindən artıq bir çox seminarlar, treninqlər keçirilmişdir. Bu tədbirlər Azərbaycan dövlətinin seçki praktikasını təkmilləşdirmək, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini daha səmərəli şəkildə həyata keçirmək əzmində olduğunu təsdiq edir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan siyasi islahatların cəmiyyətin təkamülünə təsirini daha da artırır.

Venesiya Komissiyasının katibi Tomas Markert Venesiya Komissiyasının fəaliyyəti

barədə fikirlərini bölüşmüşdür. O, vurğulamışdır ki, Venesiya Komissiyası öz fəaliyyətində üç baza prinsipini əsas götürür: demokratiya, insan hüquqları və qanunun aliliyi. Bu prinsiplərə əməl edilməsi istənilən seçkinin uğuru olar, həm də seçkilərə dair şikayətlərə baxılması prosedurlarının daha da təkmilləşməsinə və seçkilərin yüksək səviyyədə keçirilməsinə zəmin yaradar. Venesiya Komissiyasının katibi konfransda müzakirə olunan məsələlərin seçki mübahisələrinə dair işlərə baxan hakimlərin bilik və təcrübəsinin zənginləşməsinə, Azərbaycanda seçki sisteminin Avropa standartlarına uyğun olaraq daha da təkmilləşməsinə kömək edəcəyini bildirmişdir.

Konfransda Bolqarıstan Konstitusiya Məhkəməsinin sədri, Venesiya Komissiyasının üzvü Yevgeni Tançev "Seçkilərə dair şikayətlərə baxılması prosedurları sahəsində Avropa standartları: Avropa İttifaqının təcrübəsi", İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi Xanlar Hacıyev "Seçkilərə dair şikayətlərə baxılması ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ", Venesiya Komissiyasının eksperti Serhiy Kalçenko "MDB ölkələrində seçkilərə dair şikayətlərə baxılması sahəsində ortaya çıxan məsələlər", Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əsəd Mirzəliyev "Seçkilərə dair şikayətlərə baxılmasında məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi" mövzularında məruzələrlə çıxış etmişlər.



Məruzələr ətrafında müzakirələr olmuş, fikir mübadiləsi aparılmışdır. Venesiya Komissiyasında Azərbaycanın nümayəndəsi Lətif Hüseynov konfrans iştirakçılarını maraqlandıran sualları cavablandırmışdır.

Sonda Ali Məhkəmənin sədri Milli Məclisə seçkilərlə əlaqədar Venesiya Komissiyası ilə birlikdə keçirilən beynəlxalq konfransın əhəmiyyətini vurğulamış, seçkilərin yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə etmiş, qonaqlara təşəkkürünü bildirmişdir.

## Ali Məhkəmənin sədri Ramiz Rzayevin
## GİRİŞ SÖZÜ

Hörmətli həmkarlar!

Xanımlar və cənablar!

Sizləri Ali Məhkəmədə görməkdən və salamlamaqdan keçirdiyim məmnunluq hissini ifadə etmək istəyirəm. Bu günkü Konfransda Sizin iştirakınızla müzakirə olunan məsələlər heç şübhəsiz ki, seçki mübahisələrinə dair işlərə baxan hakimlərin bilik və təcrübəsinin zənginləşməsinə, Avropa standartlarına uyğun seçki prosedurları, Avropa Məhkəməsinin presedent hüququ barədə bilgi əldə etmələrinə, işimizin Avropa standartlarına uyğun olaraq daha da təkmilləşməsinə kömək edəcəkdir. Bu işdə Sizə uğurlar arzulayıram.

Çox mühüm siyasi kompaniya olan seçkinin demokratik şəraitdə keçirilməsi dövlətimizin demokratik dəyərlərə sadiqliyinin təsdiqidir. Bu günkü Konfransda Prezident Administrasiyası hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri cənab Fuad Ələsgərov iştirak edir. Mən öz adımdan və Sizin adınızdan cənab Fuad Ələsgərovu böyük səmimiyyətlə salamlayıram. Məxsusi olaraq qeyd etmək istəyirəm ki, cənab Fuad Ələsgərovun Azərbaycanda məhkəmə-hüquq islahatlarının aparılmasında, qanunvericilik bazasının təkmilləşdirilməsində zəhməti böyükdür.

Mən xüsusi olaraq Venesiya Komissiyasının yeni təyin olunmuş katibi, hörmətli cənab Tomas Markerti məmnunluqla salamlayıram. Cənab Tomas Markert uzun illər Venesiya Komissiyasında səmərəli fəaliyyət göstərir. Qeyd edim ki, Azərbaycan da Venesiya Komissiyası ilə səmərəli əməkdaşlıq edir. Azərbaycanda beynəlxalq standartlara uyğun qanunvericilik bazasının yaradılmasında, Seçki Məcəlləsinin beynəlxalq qaydalara uyğun təkmilləşdirilməsində Venesiya Komissiyasının təklifləri nəzərə alınmışdır. Venesiya Komissiyasının katibi kimi cənab Tomas Markertin Azərbaycana ilk səfəridir. Mən öz adımdan və həmkarlarım adından cənab Tomas Markerti yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edir, ona fəaliyyətində uğurlar arzulayıram.

Bolqarıstan Konstitusiya Məhkəməsinin Sədri, Venesiya Komissiyasının üzvü cənab Yevgeniy Tançevi burada görməkdən məmnunam və ürəkdən salamlayıram. Biz bir azdan cənab Tançevin dəyərli çıxışını dinləyəcəyik.

İnsan hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, dostumuz cənab Xanlar Hacıyevi Bakıda yenidən görməyimizə şadıq. Cənab Xanlar Hacıyevin seçkilərə dair şikayətlərə baxılması ilə bağlı insan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ barədə mülahizələrini dinləmək hesab edirəm ki, bizim üçün çox əhəmiyyətli olacaq.

Venesiya Komissiyasında Azərbaycanın nümayəndəsi cənab Lətif Hüseynovun bu günkü konfransda iştirakından məmnunluğumu bildirir və onu da ürəkdən salamlayıram.

Venesiya Komissiyasının ekspertləri-- cənab Sergey Kuznetsov və cənab Serhiy Kalçenko konfransda iştirak edirlər. Mən onların hər ikisini səmimi-qəlbdən salamlayıram.

Avropa Şurası Baş katibinin xüsusi nümsyəndəsi xanım Veronika Kotekin burada iştirakından məmnunuq, ona xoş gəlmisiniz- deyirəm.

Hörmətli həmkarlar!

Bilirsiniz ki, bu il noyabr ayının 7-də Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçiriləcəkdir. Bununla əlaqədar olaraq bu günkü konfrans bir sıra mühüm məsələlərin-Milli Məclisə seçkilərlə əlaqədar şikayətlərə baxılması sahəsində Avropa standartları, Avropa İttifaqının təcrübəsi, şikayətlərə baxılması sahəsində ortaya çıxan məsələlər, bu işlərlə əlaqədar Avropa Məhkəməsinin presedent hüququ, şikayətlərə baxılması ilə əlaqədar Azərbaycan Respublikasında qanunvericilik və onun məhkəmələr tərəfindən tətbiqi məsələlərinin müzakirəsinə həsr olunmuşdur.

Seçki hər bir ölkənin ictimai-siyasi həyatında mühüm hadisə, eyni zamanda, vətəndaşların dövlətin və ictimai həyatın idarə olunmasında kütləvi iştirak formalarından biridir. Xalqın iradəsinin ifadəsi olan seçkilərin demokratik, azad keçirilməsi ölkədə ictimai-siyasi sabitlikdən, ilk növbədə, normal seçki keçirilməsi üşün yaradılan şəraitdən asılıdır. Seçkilərin ədalətli və şəffav keçirilməsi cəmiyyətdə demokratik mühitin yüksək olmasından xəbər verir.

Seçkinin Azərbaycan Respublikası Konstitusiyasının, Seçki Məcəlləsinin, Azərbaycan Respublikasının qoşulduğu Beynəlxalq Müqavilələrin tələbinə, Avropa standartlarına uyğun aparılması dövlətimizin əsas məqsədlərindən biridir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək hüquqlarının olması Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində, bu hüququnun həyata keçirilməsinin təminatı isə həm Konstitusiyada, həm də ayrı-ayrı qanunlarda təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyət Planının təsdiq edilməsi haqqında" sərəncamının icrası ilə əlaqədar hazırda mühüm tədbirlər həyata keçirilir.

Hazırda Respublikamızda seçki öncəsi mühit kifayət qədər demokratikliyi ilə səciyyələnir. Parlament seçkilərinin qanunvericiliyə uyğun şəkildə aparılması üçün Azərbaycan hakimiyyəti tərəfindən lazımi tədbirlər görülür. Atılan bütün addımlar, seçki qanunvericiliyinin təkmilləşdirilməsinə, seçki mühitinin demokratikliyinə xidmət edir.

Qeyd olunan tədbirlər planının tərkib hissəsi kimi bu il avqust ayının 23-də Azərbaycan Respublikasında fəaliyyət göstərən 125 dairə seçki komissiyasının sədrləri ilə Ali Məhkəmədə görüş keçirilmiş, seçki mübahisələrinə dair işlərə baxılmasının prosedur qaydaları mövzusunda ətraflı söhbət aparılmış, onları maraqlandıran suallara cavab verilmişdir.

Venesiya Komissiyası öz fəaliyyətində üç baza prinsipini əsas götürür: Demokratiya, insan hüquqları və qanunun aliliyi. Biz də bu prinsiplərə əməl edərək seçkilərə dair şikayətlərin baxılması prosedurlarının daha da təkmilləşdirilməsinə və Milli Məclisə seçkilərin yüksək səviyyədə keçirilməsinə nail olacağıq.

Bizim üçün vacib və əhəmiyyətli olan Konfransın təşəbbüskarı kimi Venesiya Komissiyasına, çox hörmətli qonaqlarımıza təşəkkürümü bildirir, Konfransı açıq elan edir və işinə uğurlar arzulayıram.

## Ali Məhkəmənin bir qrup hakimin təntənəli surətdə təqaüdə yola salınması mərasimi



2010-cu il iyulun 2-də Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq Ali Məhkəmənin bir qrup hakimi təntənəli surətdə təqaüdə yola salınmışdır.

Mərasimi giriş sözü ilə açan Ali Məhkəmənin sədri Ramiz Rzayev qeyd etmişdir ki, təqaüdə yola salınan hakimlər həm sovet dönəmində, həm də müstəqillik dövründə fəaliyyət göstəriblər. Onların hər biri ulu öndər Heydər Əliyevin təqdimatı ilə Ali Məhkəmənin hakimi təyin olunublar. Nəriman Hüseynov, Oqtay Maqsudov, Müzəffər Ağazadə, Vidadi Həşimov və Günəş Xudaverdiyeva şərəfli ömür yolu keçiblər. Onların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Təqaüdə yola salınan beş hakimdən dördü Azərbaycan Respublikasının əməkdar hüquqşünasıdır. Bu hakimlərin əksəriyyəti 50 ilə yaxındır ki, bu vəzifələrini şərəflə yerinə yetirir və 30 ildən artıqdır ki, Ali Məhkəmənin hakimidir.



Ali Məhkəmənin sədri Ali Məhkəməyə yeni

təyin olunan hakimlərə tövsiyyələrini də bildirmişdir. Qeyd olunmuşdur ki, hakim müstəqil və ədalətli olmalıdır, şəffaf fəaliyyət göstərməlidir. Elə fəaliyyət göstərməlidir ki, cəmiyyətin məhkəmələrə olan inamı daim artsın.

Mərasimdə Məhkəmə-Hüquq Şurasının sədri, Ədliyyə naziri Fikrət Məmmədov, Respublikanın Baş Prokuroru Zakir Qaralov, Prezident Administrasiyası Hüquq-Mühafizə Orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov çıxış edərək təqaüdə yola salınan hakimlərə uzun müddət ədalət mühakiməsini yüksək səviyyədə həyata keçirdiklərinə görə təşəkkür etmiş, onlara mənalı istirahət arzulamışlar.



Təqaüdə yola salınan hakimlər əməklərinə verilən yüksək qiymətə, göstərilən diqqət və qayğıya görə dövlətə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.









## Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indii də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün 2009-cu ildə ayrılan illik vəsait 4743517 manat, o cümlədən, əmək haqqı fondu 2595844 manat müəyyən müəyyən edildiyi halda, 2010-cu ildə Ali məhkəməyə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) 5087060 manat, o cümlədən, əmək haqqı fondu 3348857 manat müəyyən edilmişdir ki, bu da bütövlükdə bundan əvvəl ayrılan büdcə vəsaitindən 343543 manat çox olmuşdur.

# Ali Məhkəmənin İnternet səhifəsi




Ali Məhkəmənin İnternet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.

Ali Məhkəmənin fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılması üçün tərtib edilən internet səhifəsi *www.supremecourt.gov.az* ünvanında yerləşir.

Ali Məhkəmənin internet səhifəsi 9 bölmədən ibarətdir. Burada Respublikamızın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu, Plenumun fəaliyyəti, Qərarları (müvafiq məhkəmə kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar), hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.

Ali Məhkəmənin İnternet səhifəsində məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys yaradılmış və istifadəyə verilmişdir.

2010-cu il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 62-dən çox ölkəsindən 28139 dəfə müraciət olunmuşdur ki, bunların 16428-i Azərbaycandan, 685-i Rusiyadan, 453-ü ABŞ-dan, 158-i Türkiyədən, 147-si Ukraynadan və 141-i İngiltərədən olmuşdur.

Qrafiklərdə müraciətlərin təkrarlanma və davamlılığa görə paylanması nümayiş etdirilmişdir. Birinci qrafikdən görünüdüyü kimi bütün müraciətlərin 42.47%-i bir, 9.54%-i iki, 6.17%-i üç, 4.73%-i dörd, 5.02%-i beş və 32.08%-i altı dəfə və daha çox təkrar olmuşdur.




İkinci qrafikdə edilən müracətlərin davamlılığı nümayiş etdirilmişdir. Buradan göründüyü kimi bütün müracətlərin 45.19%-i 10 saniyəyə qədər, 5.69%-i 11-30 saniyə, 6.03%-i 31-60 saniyə, 13.05%-i 1-3 dəqiqə, 15.42%-i 3-10 dəqiqə, 10.88%-i 10-30 dəqiqə 3.75%-i isə 30 dəqiqədən artıq davam etmişdir.

## Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından nəşr olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirilmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri, məhkəmə təcrübəsi üçün əhəmiyyət kəsb edən məhkəmə qərarları və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar dərc edilir. Bəzən bülletenin Xüsusi Buraxılışı da dərc olunur.

2010-cu ildə Ali Məhkəmənin dörd bülleteni və əlavə olaraq bülleteninin Xüsusi Buraxılışı çap olunmuşdur. Bülletenlərdə əsasən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamlar, Cinayət işləri və Mülki işlər üzrə məhkəmə təcrübəsi ilə bağlı Qanunvericiliyin bəzi maddələrinin şərhinə həsr olunmuş analitik yazılar, "İşgəncə cinayəti: cinayət qanunvericiliyi və beynəlxalq öhdəlik", "Nigah və nigah müqaviləsinin bağlanması ər-arvad arasındakı mübahisələrin düzgün həlli üçün təminatdır", "Məhkəmə aidiyyətinin pozulması iş üzrə çıxarılmış qətnamənin ləğvinə əsasdır" məqalələri, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar, Plenumda müzakirə olunan məsələlər və qəbul edilən qərarlar, aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır. Bülletenin Xüsusi Buraxılışı isə 25 sentyabr 2010-cu ildə Ali Məhkəmədə keçirilən Milli Məclisə seçkilərlə əlaqədar beynəlxalq Konfransa həsr olunmuşdur.

Ali Məhkəmənin bülletenini abunə yazılmaqla əldə etmək olar. Rəngli formada buraxılışı ilə əlaqədar bülletenin illik abunə haqqı **36 manatdır.**

Abunə haqqı aşağıda gösərilən hesaba ödənilməlidir.

VÖEN 3100693732, H/h 010965553821AZN01 Unibank KB-də, VÖEN 1300017201, kod 505754, m/h 0137010015944, SWİFT BİK: UBAZAZ22.

## Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğlu və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə 493-09-91 nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla 493-22-03 nömrəli telefonla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin *contact@ supremecourt. gov.az* e-mail ünvanı vasitəsilə də əldə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları 493-18-37 nömrəli telefonla Ali Məhkəmənin mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.

---

*Məlumat kitabçası Ali Məhkəmənin*
*əməkdaşları tərəfindən*
*hazırlanmışdır.*

*Tiraj – 200 nüsxə*